# UŞAQ İNKİŞAFI CƏDVƏLİ

## valideynlər üçün yaddaş vərəqəsi

| | Nitq bacarıqlarının tipik inkişafı | Oyun bacarıqlarının tipik inkişafı | Fiziki bacarıqlarının tipik inkişafı | Fiziki inkişafda narahatlığa səbəb ola biləcək göstəricilər |
|---|---|---|---|---|
| 3 aya qədər | • Əmizdirmə zamanı yaxşı əmir və udur<br>• Tanış səslər eşidəndə sakitləşir və ya gülümsəyir<br>• Qığıldayır və ya başqa səslər çıxarır (ağlamaqdan başqa)<br>• Başını səs gələn tərəfə çevirir | *Arxası üstə uzanan zaman:*<br>• Hərəkət edən oyuncağı gözləri ilə izləyir<br>• Sinəsi üstündə tutulan oyuncağa tərəf dartınır<br>• İnsanın üzünə və ya oyuncağa baxmaq üçün başını orta xətt üzrə saxlayır | <br>*Qarnı üstə uzanan zaman:*<br>• Əllərinə dirənərək bədənini qaldırmağa çalışır<br>• Başını qaldırır və saxlayır | <br>• Başını qaldıranda çətinlik çəkir<br>• Ayaqları gərgin olur, az hərəkət edir və ya hərəkətsiz olur<br><br>• Başı arxaya doğru dartınır<br>• Əllərini yumruq şəklində saxlayır<br>• Əllərinin hərəkətləri məhduddur |
| 6 aya qədər | • Qığıldayan zaman samit səslər çıxarmağa başlayır, məsələn: "Də-də"<br>• Başqalarının diqqətini cəlb etmək üçün səslərdən istifadə edir<br>• Sıyıq və əzilmiş yeməklər yeyir | • Qarnı üstə uzanan zaman yaxında olan oyuncağa tərəf dartınır<br>• Arxası üstə uzanan zaman oyuncağı bir əlindən o biri əlinə ötürür<br>• Arxası üstə uzanan zaman ayaqları ilə oynamaq üçün əllərini uzadır | • Oturarkən tarazlığını saxlamaq üçün əllərindən istifadə edir<br>• Arxası üstə uzanan vəziyyətdən qarnı üstə uzanan vəziyyətə keçir<br>• Dəstəklə ayaq üstündə dayandıqda öz çəkisini ayaqlarının üzərinə sala bilir<br> | <br>• Kürəyi qövs şəklini alır<br>• Başını qaldıra bilmir<br>• Başını zəif idarə edir<br><br>• Uşağı özünüzə tərəf çəkmək üçün onun əllərindən dartaraq düzləndirmək çətindir<br>• Bədəni arxaya əyilir və ayaqları gərginləşir<br>• Əlləri arxaya tərəf çəkilir<br>• Ayaqları gərgindir<br> |
| 9 aya qədər | • Tədricən daha müxtəlif səs və hecalar tələffüz edir<br>• Adlandırılan tanış əşyalara və insanlara baxır<br>• Doğranmış halda olan qidaları yeyir | • Oturduqda butulkanı özü saxlayaraq su içir<br>• Əşyanı iki əli ilə tədqiq edir<br>• Bir neçə vərəqi birdən çevirməklə qalın kitabı vərəqləyir<br>• Sadə oyun zamanı başqalarını təqlid edir | • Oturaq vəziyyətdə oyuncaqlara doğru dartınanda yıxılmır<br>• Arxası və ya qarnı üstə uzanan vəziyyətdən oturaq vəziyyətə keçir<br>• Əllərini və dizlərini növbə ilə qoyaraq iməkləyir<br> | • Çox vaxt ancaq bir əlindən istifadə edir<br>• Kürəyi qövs şəklini alır<br>• Oturan zaman əllərindən az istifadə edir<br><br><br>• İməkləməkdə çətinlik çəkir<br>• Hərəkət edən zaman bədəninin ancaq bir tərəfindən istifadə edir<br><br>• Onurğasını düzləndirə bilmir<br>• Ağırlığını ayaqlarına keçirə bilmir |
| 12 aya qədər | • "Ana" və "ata" sözlərini dərk edərək tələffüz edir<br>• Sadə göstərişləri yerinə yetirir, məsələn: "Bura gəl"<br>• Qapaqsız fincandan mayeni içə bilir. | • Əlləri ilə yeyir<br>• Əşyaları böyük dəlikli qutuya yığır<br>• Xırda əşyaları götürmək üçün baş və şəhadət barmaqlarından istifadə edir | • Ayağa qalxmaq üçün dartınır və mebeldən tutaraq gəzir<br>• Sərbəst durur və bir neçə addım atır<br> | • Ayaqları gərgin olduğu və barmaqları dik durduğu üçün ayağa qalxmaqda çətinlik çəkir<br>• Ayağa qalxmaq üçün yalnız qollarından istifadə edir<br><br>• Oturan zaman ağırlığını ancaq bir tərəfi üzərinə salır<br>• Əlləri həddən artıq bükülmüş və ya gərgin açılmış vəziyyətdə olur<br>• Oturan zaman əlləri ilə özünə dəstək verir<br> |
| 15 aya qədər | • 5-10 söz deyir<br>• Az tanış olan sözləri təkrarlamağa çalışır<br>• 50-yə qədər sözü başa düşür<br>• Doğranmış halda yediyi qidaların müxtəlifliyi artır | • İki kubiki üst-üstə qoyur<br>• Geyinib-soyundurulduqda özü də iştirak edir<br>• Fincanı tutur və mayeni içir. | • Sərbəst gəzir və nadir hallarda yıxılır<br>• Oyuncağı qaldırmaq üçün çömelir<br> | • Sərbəst yeriyə bilmir<br>• Ayaq üstə duran zaman tarazlığını tam saxlaya bilmir, tez-tez yıxılır<br>• Barmaqlarının ucunda yeriyir<br> |

# Hörmətli valideyn!

- Müşahidələrinizi və narahatlıqlarınızı burada qeyd edin
- Cədvəli vaxtaşırı gözdən keçirin və uşağınızda müşahidə etdiyiniz əlamətlərlə uzlaşdırın
- Cədvəli və etdiyiniz qeydləri uşağınızın həkimi ilə müzakirə edin

*Qeydlər:*

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Vərəqə "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2014-2020-ci illər üzrə Strateji Planı"na əsasən, Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanaraq çap edilmişdir.